# Təhsil Proqramının təlim nəticələri (PTN)
# “Kimya və biologiya müəllimliyi”

**PTN 1.** İxtisası üzrə həm Azərbaycan dilində, həm də xarici dildə şifahi və yazılı şəkildə kommunikasiya qurur, müzakirələr aparır, müvafiq məlumatı təhlil edir və hər hansı problemin həlli üçün əlavə informasiya resurslarını müəyyən edir.

**PTN2.** Azərbaycan tarixi, ədəbiyyatı, mədəniyyəti, insan haqq və hüquqlarına dair biliklərə malik olmaqla, dövlətimizin siyasi və hüquqi maraqlarını qorumaq qabiliyyətinə malik olduğunu nümayiş etdirir.

**PTN 3.** Müasir İnformasiya və Kommunikasiya Texnologiyalarından (İKT) yerində və səmərəli şəkildə istifadə edir.

**PTN 4.** Pedaqoji etikaya, etik davranış qaydalarına riayət edir və sosial həyat bacarıqlarına sahib olduğunu nümayiş etdirir.

**PTN 5.** Mənəvi, psixoloji, fiziki sağlamlığın qorunması qaydalarına əməl edir, fövqaladə vəziyyətlərdə özünü idarə etməyi bacarır.

**PTN 6.** Elmi bilik və bacarıqları müxtəlif auditoriyalarda effektiv şəkildə təqdim edə bilir.

**PTN 7.** Digər fənlərlə, xüsusən tənqidi düşüncəyə, təhlil və tədqiqata əsaslanan fənlərlə qarşılıqlı əlaqə quraraq, fənlərarası bilik və bacarıqlardan istifadə edir.

**PTN 8.** Həm kimya, həm də biologiya sahəsinin bir çox istiqamətləri ilə tanış olub, konkret bir istiqamət üzrə isə daha dərin bilik və bacarıqlara malik olmalı

**PTN 9.** Müasir tədqiqatlarda istifadə olunan texniki və analitik bacarıqlara, düzgün və təhlükəsiz laboratoriya təcrübəsinə malik, avadanlıqlardan və əsas metodikalardan istifadə edə bilməli.

**PTN 10**. Kimyəvi və ya bioloji tədqiqatlar aparmaq, təcrübənin nəticələrini izah etmək, ədəbiyyat və məlumat bazalarından məlumatları tapmaq və şərh etmək bacarığına malik olmalı.